

# Azərbaycanda satılan dərmanlarla bağlı böyük şübhələr...

*Son vaxtlar Azərbaycanda əhalinin aldığı dərmanların effektsizliyinə dair şikayətlərinə tez-tez rast gəlinir. Onlar yerli apteklərdə satılan dərmanların istənilən təsiri göstərmədiyindən gileygüzar edirlər. Hətta iş o yerə çatıb ki, artıq adi qızdırmasalıcının belə, hətta Avropadan gətizdirildiyi barədə məlumatlar dolaşır. Bəs ölkəmizdə satılan dərmanların effektsizliyi barədə deyilənlər nə qədər doğrudur. Bu yöndə artan şikayətlərin əsl səbəbi, və ya səbəbləri hansılardır?*

Səh.13


# UNİKAL

№48 (1987) 26 oktyabr 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Elman Rüstəmovdan mühüm anons

## Baş bankir: “Manatın ucuzlaşması mümkün deyil”

*”Bu gün nə manatın məzənnəsinin möhkəmlənməsi, nə də ucuzlaşması milli iqtisadiyyat üçün yararlı deyil, zərərli ola bilər”.*

Bunu Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib.

Onun sözlərinə görə, manatın möhkəmlənməsi yaranmaqda olan ixrac potensialı və bu istiqamətdə qoyulmuş investisiyalar üçün zərərli ola bilər.

”Manatın ucuzlaşması da mümkün deyil. Çünki bazarda 1 milyard dollar profisit var. İlin sonuna qədər bu vəsaitləri reallaşdırmalıyıq ki, büdcə öz öhdəliklərini yerinə yetirə bilsin”. E.Rüstəmov qeyd edib ki, cari ildə manatın məzənnəsinə təsir edəcək fundamental amil yoxdur: ”Aşağı inflyasiya proqnozları onu göstərir ki, gələn ilə nikbinliklə baxaq. Gələn il də manatın məzənnəsini idarə edə biləcəyik”.

Səh.9

Səh.3



# Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin XVIII Zirvə Görüşü baş tutdu

## "Biz həmişə birliyin tərəfdarı olmuşuq"



*Məlum olduğu kimi, müxalifət düşərgəsi xeyli müddətdir ki, vahid mövqeyə gələ bilmir. Son iki ildə yaranan birliklərin ömrü isə qısa olub. Ya liderlər arasındakı şəxsi münasibətlər üzündən parçalanma olub, ya da ümumiyyətlə, birlik müzakirələri baş tutmayıb. Amma son günlər birlik istiqamətində təşəbbüslər davam etməkdədir.*

Səh.4

## Kitab dərslik erası başa çatır



*Qonşu Gürcüstanda şagirdlərin mütləq əksəriyyəti elektron dərsliklərdən istifadə edirlər. Azərbaycanda isə elektron dərsliklərə keçid hələ ki, baş tutmayıb. Təhsil naziri Ceyhun Bayramov da bu günlərdə bu məsələyə toxunaraq elektron dərsliklərin istifadəsinin vacib olduğunu söyləyib. Nazir deyib ki, bu, əlavə bir üstünlük, əlavə bir imkandır...*

Səh.8

## Daha 1000 nəfərin sosial yardımı kəsiləcək



*“Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində transfert məbləğinin payı 2017-ci ildəki 39 faizdən ötən il 35,6 faizə, bu il isə 32,8 faizə enib. Əhaliyə sosial ödənişlərin ciddi şəkildə artdığı şəraitdə transfert məbləği azalmaqdadır...*

Səh.8